# Azərbaycan işğaldan azad edilmiş ərazilərdə müasir şəhər planlaşdırılmasını uğurla həyata keçirir

*Bakının və Azərbaycanın digər şəhərlərinin müasirləşdirilməsi və yenidən qurulması zamanı biz şəhərlərin inkişafı baxımından yeni imkanlar və təcrübə əldə etmişik. Ən gözəl şəhərlərdən biri hesab olunan Bakı misilsiz memarlığı, park və bulvarları ilə tarixi irs və müasirliyin ahəngliyini özündə birləşdirir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bu il ölkəmizin Birləşmiş Millətlər Təşkilatına üzvlüyünün 30 illiyi tamam olur. Bu mühüm hadisənin qeyd edilməsi məqsədilə cari ilin mart ayında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində BMT qurumlarının iştirakı ilə münaqişədən və pandemiyadan sonrakı dövrdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması mövzusunda çox mühüm tədbir keçirilib.***



Tədbir iştirakçıları tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərini gerçəkləşdirmək istiqamətində Azərbaycanın əldə etdiyi tərəqqi, eləcə də işğalçıdan təmizlənən ərazilərin dirçəldilməsi və həmin yerlərə həyatın qaytarılması ətrafında müzakirələr aparılıb.

Prezident İlham Əliyev Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumu çərçivəsində keçirilən sessiyasında videoformatda çıxışında bu barədə ətraflı bəhs edib. Ölkə rəhbəri nitqində "2030-cu ilə qədər Dayanıqlı İnkişaf Gündəliyi", habelə "Yeni Şəhər Gündəliyi"nin dayanıqlı urbanizasiyanı və şəhərlərimiz üçün daha yaxşı gələcəyi təmin etmək üzrə səyləri istiqamətləndirdiyini bildirib. Dövlətimizin başçısı daha sonra deyib: "Paytaxt Bakının tarixi simasını qorumaqla bərabər, biz onun infrastrukturunun yenidən qurulmasına və müasirləşdirilməsinə nail olmuşuq. Qeyd etmək lazımdır ki, Bakının və Azərbaycanın digər şəhərlərinin müasirləşdirilməsi və yenidən qurulması zamanı biz şəhərlərin inkişafı baxımından yeni imkanlar və təcrübə əldə etmişik. Ən gözəl şəhərlərdən biri hesab olunan Bakı misilsiz memarlığı, park və bulvarları ilə tarixi irs və müasirliyin ahəngliyini özündə birləşdirir".

Prezident İlham Əliyev çıxışında 30 il işğalda olan ərazilərimizin azad edilməsindən sonra respublikamız üçün dayanıqlı şəhər inkişafı məsələsinin daha böyük dəyər daşıdığını vurğulayıb. Ölkə rəhbəri, həmçinin Birinci Qarabağ savaşından Vətən müharibəsinədək olan dövrdə işğalçı tərəfindən şəhər və kəndlərimizin qəsdən dağıdılaraq, mədəni və dini abidələrin izinin itirildiyini, həmin ərazilərin urbisid və kultursidin bariz nümunəsinə çevrildiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı nitqində bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması faktına dünyanın heç bir yerində rast gəlinmədiyini, eyni zamanda, Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndinin yer üzündən silindiyini xatırladıb. "Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, əcnəbi mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırıblar. Füzuli şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan Ordusu orada bayrağımızı dalğalandırmağa bir dənə də olsun tikili tapa bilməyib, – deyə Prezident İlham Əliyev qeyd edib. Dövlətimizin başçısı nitqində xarici diplomatlar, jurnalistlər və beynəlxalq QHT-lərin nümayəndələrinin azad edilmiş ərazilərə səfərləri zamanı bu vandalizmin şahidi olduqlarını və dağıntıların tam miqyasınının sənədləşdirildiyini də diqqətə çatdırıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev xarici ölkələrə səfərləri zamanı çıxışlarında, jurnalistlərə müsahibələrində 30 illik işğal ərzində Qarabağda Azərbaycanın bütün mədəniyyəti, tarixi və dini irsinin məhv edildiyini, çox sayda dinc sakinlərimizin qətlə yetirildiyini, indi üzə çıxan kütləvi məzarlıqların isə erməni faşizminin dəhşətli əməllərinin göstəricisi olduğunu vurğulayıb. Ölkə rəhbəri Livanın ərazisinə bərabər Qarabağda ermənilər tərəfindən barbarlıq, vandalizm aktları törədildiyini, yaşayış sahələrinin əvvəlki görkəmindən heç bir əsər-əlamət qalmadığını bildirib. Dövlətimizin başçısı 30-40 min insan yaşayan Ağdam şəhərinin yerində bu gün xarabalıqdan başqa heç nə qalmadığını, evlərin daşlarının daşınaraq satıldığını, məzarlıqlarda başdaşıların sındırıldığını, qəbirlərin təhqir olunduğunu, bir sözlə, misli görünməyən, ağlasığmayan miqyasda vandallıq törədildiyini diqqətə çatdırıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, təəssüf ki, bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Eyni zamanda, işğal altındakı ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bu dəhşətli vəziyyəti görməməyi üstün tutub. Amma Vətən müharibəsindən sonra beynəlxalq aləm, nüfuzlu təşkilatlar, dünya dövlətləri, o cümlədən, Avropa Parlamenti erməni faşizminin dəhşətlərindən xəbərdar olub. Təəssüf ki, bu dəfə də bu dəhşətlər susqunluqla qarşılanıb.

Burada bir məqamı da xatırladaq. Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərimizə səfərləri zamanı çıxışlarının birində bildirib ki, zaman dəyişsə də, erməni faşizmi dəyişmir: "Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir".

Dövlətimizin başçısı hər zaman qeyd edib ki, erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, Ermənistan Qafqazda mədəniyyət ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu dağıdılan binalardır, qazılan qəbirlərdir, təhqir edilən məscidlərdir.

Qarabağda bütün dağıntılar məqsədli şəkildə edilib. Belə ki, erməni vandalları tərəfindən Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi miraslar viran qoyulmaqla azərbaycanlıların bu ərazilərdəki mədəni kimliyinin itirilməsi məqsədi güdülüb.

Bütün bunlar, eyni zamanda, onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə, müqəddəs məkanlarına qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Prezident İlham Əliyev Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumu çərçivəsində keçirilən sessiyasında videoformatda çıxışında Ermənistanın 30 illik işğalına baxmayaraq, Azərbaycanın müharibə səhifəsini çevirmək, münasibətləri normallaşdırmaq və bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması prinsipi əsasında işğalçı ölkə ilə sülh müqaviləsi imzalamaq istəyində olduğunu da deyib: "Azərbaycan sülh danışıqları üçün 5 əsas prinsip irəli sürüb və Ermənistan onları qəbul edib. İnanırıq ki, sülh müqaviləsi bölgəni sülh və əməkdaşlıq regionuna çevirə bilər.

Hazırda Azərbaycan müasir tarixin ən mürəkkəb və iddialı bərpa-yenidənqurma işlərindən birini həyata keçirir. Yenidənqurma ilə başlayır. Kütləvi minalanma qarşımızda duran ən böyük çətinlikdir və bu, yenidənqurma prosesi minalardan təmizlənmə işlərini, məcburi köçkünlərin qayıdışını ləngidir. İlkin hesablamalara görə, işğal dövründə Ermənistan həmin ərazilərə bir milyondan artıq mina basdırıb. 2020-ci ilin noyabr ayında Vətən müharibəsi başa çatdıqdan sonra mina partlaması nəticəsində 220-dən artıq Azərbaycan vətəndaşı həlak olub və ya ağır yaralanıb".

Dövlətimizin başçısı nitqində Azərbaycanın hazırda azad edilmiş ərazilərdə müasir şəhər planlaşdırılması həyata keçirdiyini, "yaşıl enerji" və "sıfır tullantı" konsepsiyalarını uğurla tətbiq etdiyini də diqqətə çatdırıb.

Ölkə rəhbəri xatırladıb ki, məcburi köçkünlərimiz 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkib və doğma yurdlarından məhrum edilib. Onların qayıdışı üçün ilk pilot layihə Zəngilan rayonunun Ağalı kəndində reallaşdırılıb. Bu ilin may ayında Ağalı kəndinin ilk sakinləri doğma torpaqlarında məskunlaşmağa başlayıblar. Bu gün Ağalı "ağıllı kənd"i dünyanın ən müasir kəndlərindən biridir.

Azərbaycan işğaldan azad olunmuş Füzuli şəhərində isə səkkiz aydan az bir müddətdə hava limanı inşa edib. Düşməndən təmizlənən Zəngilan və Laçın rayonlarında da hazırda daha iki hava limanının tikintisi davam edir.

Azad edilmiş bəzi şəhərlərin baş planları da artıq hazırdır. Şuşa şəhərinin Baş planı onun möhtəşəm tarixi irsinin qorunması üzərində qurulub.

Ölkə rəhbəri nitqində Qarabağ bölgəsinin sənaye mərkəzinə çevriləcək Ağdamda on minlərlə sakin üçün nəzərdə tutulan tamamilə yeni şəhər inşa edildiyini, ərazisi 200 hektar təşkil edən Ağdam Sənaye Parkının artıq fəaliyyət göstərdiyini, Zəngilan şəhərinin təbiətə inteqrasiya və park şəhərinə çevrilməsi istiqamətində yenidən qurulduğunu, ümumiyyətlə, yenidənqurma prosesində əsas vəzifənin keyfiyyət və sürəti birləşdirmək, ətraf mühitin qorumaq olduğunu xüsusi vurğulayıb. "Məqsədimiz Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq inklüziv, təhlükəsiz, dözümlü və dayanıqlı şəhər və kəndlərin inşasıdır. Yeni şəhərlərdə, kəndlərdə yaşamaq və işləmək şəraiti vəhdət təşkil edəcək", – deyə ölkə rəhbəri qeyd edib.

Prezident İlham Əliyev çıxışının sonunda böyük məmnuniyyətlə Azərbaycanın Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə evsahibliyi etmək arzusunda olduğunu da diqqətə çatdırıb və bunu ölkəmizin indiyədək yüksək səviyyəli beynəlxalq tədbirlər reallaşdırmaq təcrübəsinin olması ilə əlaqələndirib.

Yeri gəlmişkən, Ümumdünya Şəhər Forumunun 11-ci sessiyası çərçivəsində keçirilən panel və müzakirələrdə işğal dövründə xarabalığa çevrilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidən məskunlaşdırılmasına dair ölkəmizin təcrübəsi haqqında ətraflı danışılıb. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışında Azərbaycanın düşməndən təmizlənən torpaqlarında apardığı bərpa-quruculuq işlərinin həm UN HABITAT qurumu, həm də Ümumdünya Şəhər Forumunun iştirakçıları üçün yeni perspektivlər açdığını bildirib.

Natiq hazırda Azərbaycanın 9-u şəhər olmaqla, tamamilə dağıdılmış yüzlərlə yaşayış məskəninin sıfırdan bərpa prosesinin necə aparıldığını bütün dünyaya əyani şəkildə nümayiş etdirdiyini vurğulayıb. O, haqlı olaraq, bu gün ölkəmizin gerçəkləşdirdiyi bərpa-quruculuq işləri dünyada presedenti olmayan meqalayihə adlandırıb.

Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin sözlərinə görə, ölkəmizin işğaldan azad edilmiş ərazilərdə apardığı bərpa-quruculuq işləri bütün dünya üçün nümunədir: "Heç kim müharibə və dağıntılar arzulamır, lakin təəssüf ki, müasir dövrümüzdə savaş və münaqişələrin sayı azalmaq bilmir. Total dağıntı və vandalizm aktlarından sonra ölkələr ərazilərin bərpasını həyata keçirməkdə Azərbaycan təcrübəsindən bəhrələnə bilərlər".

Qeyd olunub ki, belə tədbirlərdə iştirak və təqdimatlar BMT-nin Məskunlaşma Proqramı və digər qurumlarının Azərbaycanda aparılan bərpa-quruculuq işlərinə diqqət və marağını artıra bilər. Eyni zamanda, Azərbaycanın təcrübəsini öyrənməklə fərqli ölkələrdə yerli şəraitə uyğunlaşdırılmış uğurlu modellərin tətbiqi üçün də imkanlar açılır: "Məhz bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, cari ilin payız aylarında Milli Şəhərsalma Forumunun keçirilməsi, həmçinin bu sessiyada iştirak edən təşkilat və ölkə nümayəndələrinin tədbirə dəvət edilməsi planlaşdırılır".

Ümumdünya Şəhər Forumunun 11-ci sessiyasında, eyni zamanda, bildirilib ki, Azərbaycanda bu gün şəhər əhalisi ölkə əhalisinin yarıdan çoxunu təşkil edir. Son illərdə şəhər idarəçiliyinin gücləndirilməsi, şəhərsalma planlarında proqnozlaşdırma və ardıcıllığın təmin edilməsi, yoxsulluğun azaldılması, sosial müdafiənin gücləndirilməsi, nəqliyyat, ekoloji, həmçinin su idarəetmə sistemlərinin təkmilləşdirilməsi, aztəminatlı ailələrə və digər həssas sosial qruplara dəstək verilməsinə yönəlmiş müvafiq qanunvericilik aktları qəbul edilib, əhatəli və səmərəli siyasət həyata keçirilib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***